**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2011-ci ilin yanvar-dekabr ayları ərzində sosial -iqtisadi inkişafın nəticələri haqqında**

# M Ə L U M A T

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

Ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan sürətli inkişaf 2011-ci ildə də davam etmiş, istehsal və xidmət sahələrində yüksək artım sürəti təmin edilmişdir. İlkin hesablamalara görə 2011-ci il ərzində ölkədə 50.1 milyard manat həcmində və ya əvvəlki ildəkindən 0.1 faiz çox ümumi mdaxili məhsul istehsal olunmuş, ÜDX-in əhalinin hər nəfərinə düşən həcmi 5530.6. manat və ya 7003.4 ABŞ dolları təşkil emişdir..

Ümumi daxili məhsulun formalaşmasında xüsusi rol oynayan sənaye sahəsində 2010-cu ildə 27.4 milyard manatlıq məhsul istehsal olunaraq 2009-cu il ilə müqayisədə 2,6 faiz artmışdır. Sənaye məhsulunun 75,8 faizi mədənçıxartma bölməsində, 19,1 faizi emal bölməsində istehsal olunmuşdur.

Ümumi daxili məhsulun 53.9 faizi sənayedə, 5.5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 8.3 faizi tikintidə, 6.5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 4.9 faizi nəqliyyat və anbar təsərrüfatında, 1.2 faizi turistlərin yerləşdirilməsi və iaşə xidmətləri sahəsində, 1.7 faizi informasiya və rabitədə, 12.0 faizi sosial və digər xidmət tikintidə olunmuş, məhsula və idxala görə ödənilmiş xalis vergilərin payı isə 6.0 faiz təşkil etmişdir.

**2011-ci ilin yanvar-dekabr aylarında ümumi daxili məhsulun strukturu**




2011-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 12776.4 milyon manat məbləğində investisiyalar yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitin 80.3 faizini daxili investisiyalar, 19.7 faizini xarici investisiyalar təşkil etmişdir. Daxili investisiyanın 67.3 faizi dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 32.7 faizi qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

Əsas kapitala yönəldillmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 6095.9 milyon manat ( ümumi investisiyanın 47.7 faizi), bank kreditləri 897.0 milyon manat (7.0 faizi), büdcə vəsaitləri 5038.5 milyon manat (39.5 faizi), büdcədənkənar fondların vəsaitləri 396.5 milyon manat (3.1 faizi), əhalinin şəxsi vəsaitləri 335.7 milyon manat (2,6 faizi), digər vəsaitlər isə 12.8 milyon manat (0.1 faizi) təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**

Ümumi həcmdə xüsusi çəkisi, faizlə




**2011 -ci ildə əsas kapitala yönəldilmiş bütün investisiyanın 38.0 faizi sənaye sahələrinin inkişafına, 3.7 faizi kənd təsərrüfatı və balıqçılığa, 3.8 faizi ticarətə, 21.1 faizi nəqliyyata, 2.2 faizi informasiya və rabitəyə, 1.4 faizi tikintiyə, hər binində 2.4 faizi təhsil və səhiyyəyə, 3.7 faizi dövlət idarəetməsinə,1.6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşəyə, 0.3 faizi digər sahələrə sərf edilmişdir.**

Əsas kapitala yönəldilmiş ümumi investisiyanın 9811.5 milyon manatı (76.8 faizi) qeyri-neft bölməsinin, o cümlədən 1884.2 milyon manatı (14.7 faizi) qeyri- neft sənaye bölməsinin, 2967.9 milyon manatı (30.30 faizi) neft sektorunun inkişafında istifadə edilmişdir.

Ölkə iqtisadiyyatının əsas infrastrukturlardan biri olan nəqliyyat sektoru dayanıqlı olaraq inkişaf etməkdədir. Əvvəlki illərdə olduğu kimi, 2011-cu ildə də nəqliyyat sektoruna investisiyaların yönəldilməsi, nəqliyyatın hərəkət heyətinin yeniləşməsi, körpülərin tikilməsi, yeni avtomobil yollarının çəkilişi, yenidənqurulması və s. işləri davam etdirilmiş, transmilli layihələrin səmərəli fəaliyyəti sahənin inkişafına öz müsbət təsirini göstərmişdir.

2011-ci ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən müəssisələrə və əhaliyə göstərilmiş xidmətlərin üçdə iki hissəsi dəmir yolu nəqliyyatı, avtomobil və boru kəməri, 9,0 faizi dəniz, 15,3 faizi hava nəqliyyatı, qalan hissəsİ isə köməkçi və əlavə nəqliyyat fəaliyyəti ilə məşğul olan müəssisələr tərəfindən göstərilmişdir.

Müstəqillik illərindən ən yüksək həddə çatmaqda ötən il ərzində 203.5 milyon ton və ya 3,6 faiz çox yük daşınmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 54,0 faizi avtomobil 29.0 faizi boru kəməri, 10.9 faizi dəmir yolu, 6.1 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

Son 5 ildə bütün nəqliyyat növləri ilə yük daşınması orta hesabla hər il 6.9 faiz, o cümlədən avtomobil nəqliyyatında 6.7 faiz, boru kəməri nəqliyyatında isə 16.6 faiz çoxalmışdır.

Ötən ildə özəl bölmənin nəqliyyat vasitələri ilə yük daşınması 3.6 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 73.8 faiz təşkil etmişdir.

Nəqliyyatçılar 1.5 milyard nəfərə və ya 2010-cu illə müqayisədə 7.5 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 87.4 faizi avtomobil, 12.2 faizi metro nəqliyyatı ilə daşınmışdır

**Dəmir yolu nəqliyyatı** ilə yük daşınması 2011-ci ildə 22,2 milyon ton yük daşınmışdır.İl ərzində orta hesabla sutkada 694 vaqon yüklənmiş, 493 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 30.6 min ton, Qərb istiqaməti üzrə 4.5 min ton və Cənub istiqamətləri üzrə 3.4 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 6.7 faiz artaraq 12.5 milyon ton təşkil etmişdir. Yüklərin üçdə iki hissəsini neft yükləri, üçdə bir hissəsini isə quru yüklər təşkil etmİş və demək olar ki, bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. İl ərzində **dəniz limanlarında** 11.9 milyon ton yukləmə-boşaltma işləri həyata keçirilmiş və əvvəlki illə müqayisədə 10.3 faiz artım olmuşdur. İşlənmiş yüklərin 85.5 faizini təşkil edən beynəlxalq tranzit yüklərin həcmi 7.5 faiz., idxal yüklərin həcmi 47.7 faiz artmışdır. 2012-ci il yanvarın 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 72.0 min ton və ya əvvəlki illə müqayisədə 27.4 dəfə çox idxal yüklərin qalığı olmuşdur.

**Nəqliyyat sektorunda yük daşınması, min ton**



2011-ci il yanvar-dekabr

2010-cu il yanvar-dekabr

Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan avtomobil nəqliyyatı ilə 109.8 milyon ton yük, 1.3 milyard sərnişin daşınmış və əvvəlki illə müqayisədə müvafiq olaraq 9.9 və 8.7 faiz artmışdır. Sərnişinlərin 96.4 faizi avtobus, 3.6 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 9.1 faiz, sərnişin dövriyyəsi isə 11.6 faiz artmışdır.İl ərzində ölkədəki mövcud vatonəqliyyat vasitələrinin sayı əvvəlki illə müqayisədə 55.1 min ədəd artaraq 1037.6 min ədəd təşkil etmişdir.Əhalinin hər 1000 nəfərinə düşən avtomobillərin sayı son 5 ildə 1.4 dəfə artaraq 115 ədəd olmuşdur.Avtomobillərin 84.0 faizi minik avtomobilləri , 11.7 faizini yük avtomobilləri, 2.8 faizini avtobuslar, qalan hissəsini isə xüsusi təyinatlı və digər avtomobillər təşkil etmişdir.

2011-ci ildə ölkənin avtomobil yollarında 2890 **yol-nəqliyyat hadisəsi** qeydə alınmışdır. Yol-nəqliyyat hadisələrinin sayı ötən illə müqayisədə 6.2 faiz artmış, baş vermiş qəzalar nəticəsində 4047 şəxs zərər çəkmiş, onların hər dörd nəfərindən biri həlak olmuş, 75.0 faizi isə müxtəlif dərəcəli bədən xəsarəti alaraq yaralanmışdır.İl ərzində baş vermiş yol-nəqliyyat hadisələri zamanı 1016 nəfər və ya 9.8 faiz çox insan həyatını itirmiş, 3031 nəfər və ya 5.6 faiz çox şəxs yaralanmışdır.

**Metro nəqliyyatı**nın xidmətlərindən il ərzində İstifadə etmiş sərnişinlərin sayı 182.6 milyon nəfər olaraq 0.8 faiz artmışdır.

**Hava nəqliyyatı** ilə 1.4 milyon və ya 37.1 faiz çox sərnişin daşınmış, daşımanın 97.0 faizi dövlət bölməsinə, 3.0 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Artım yük daşımasında 27.2 faiz təşkil etmişdir.

**Magistral neft kəmərləri** ilə 45.6 milyon ton neft nəql edilmişdir. Nəqletmənin dörddə üç hissəsi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan H. Əliyev adına BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən il ərzində bu kəmər vasitəsilə 34.5 milyon ton neft ötürülmüşdür. Dövr ərzində gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə 2.1 milyon ton trranzit Türkmənistan nefti nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 18.7 milyard kub-metr və ya 7.8 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 30.9 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 4.5 milyard kub-metr qaz ötürülmüşdür.

**"İpək yolu" nəqliyyat dəhlizi**nin Azərbaycana məxsus hissəsində 2011-ci ilin yanvar-noyabr aylarında 49.1 milyon ton və ya 4.7 faiz çox yük, 220.3 milyon nəfər və ya 8.1 faiz çox sərnişin daşınmışdır. Yüklərin 43.4 faizi avtomobil, 37.5 faizi dəmir yolu, 19.1 faizi dəniz nəqliyyatının payına

düşmüş, bütün nəqliyyat növlərində, o cümlədən avtomobil nəqliyyatında 7.7 fai artım qeydə alınmışdır. Yük daşımaları fəaliyyətindən 334.4 milyon manat, sərnişin daşımasından isə 68.1 milyon manat gəlir əldə olunmuş və müvafiq olaraq 14.1 və 21.1 faiz artmışdır.

2011-cu ilin yanvar-noyabr aylarında nəqliyyat müəssisələrində 64.6 min işçi çalışmış, onların orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 17.2 faiz artaraq 436.9 manat təşkil etmişdir.